TÜRKOLOGİYA
№ 2 2020

## MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT
## КУЛЬТУРА И ИСКУССТВО
## CULTURE AND ART

*SEVİNC NƏSİROVA (Azərbaycan)**

# AZƏRBAYCAN XALÇALARINDA "OX" VƏ "AND" DAMĞALARININ MİFOLOJİ ƏSASLARI

**Xülasə**

Məqalədə türk xalqlarının geniş yayılmış sənətkarlıq məmulatlarından biri olan xalçalar və xalça məmulatları üzərində salınmış naxışlardan bəhs olunur. Bu naxışların bir çoxu türk xalqlarının dini və mifoloji dünyagörüşü ilə bağlı formalaşmışdır. Naxışlar bir çox tədqiqatın mövzusu olsa da, onlar haqqında düzgün nəticəyə gəlmək bu tədqiqatların arxeoloji, etnoqrafik, filoloji, dini baxımdan aparılmasını tələb edir. Belə ki, naxışların bir qismi tarixi proseslərlə əlaqədar stilizə olunaraq öz ilkin görkəmindən uzaqlaşmışdır. Məqalədə türk xalqlarının tətbiqi sənətlərində istifadə olunmuş bəzi naxışlara toxunulmuşdur. Bunlar əsasən ox və and naxışıdır ki, onların formalaşması birbaşa tarixi proseslərlə əlaqədardır. Məqalə hələ də xalq arasında aktual olan bir çox şifahi xalq ədəbiyyatı nümunələri (atalar sözləri, məsəl, deyimlər), arxeoloji tapıntılar, qəbir abidələri, türk xalqlarının mifologiyası ilə paralellər aparılaraq yazılmışdır.

Araşdırmaya türk xalqlarının müxtəlif sənətkarlıq nümunələri, xüsusilə də xalçalar cəlb olunmuşdur. Azərbaycan Tarixi Muzeyinin zəngin kolleksiyasında Azərbaycan xalça məktəblərinin hər birinə aid nümunələr mühafizə olunur ki, onların tədqiqi Azərbaycan xalqının dünyagörüşü və mifoloji təfəkkürünün sırf türk xalqlarının təsiri ilə formalaşdığını bir daha sübut edir.

**Açar sözlər:** *damğa, türk xalqları, xalça, "and" damğası, kımız.*

## Giriş

Qədim türk əlifbasının ilkin variantı olan damğaların bir çoxu qayaüstü təsvirlərə həkk edilərək zamanımıza qədər gəlib çatmışdır. Belə təsvirlərin bir çoxu Azərbaycanın Gəmiqaya və Qobustan abidələrində də qarşımıza çıxır. Onların istər arkeoloji, istərsə də etnoqrafik aspektlərdən araşdırılması zamanı bu işarə-rəmzlərin bütün türk dünyasında istifadə olunduğunu görürük. Altaylardan Naxçıvana, Anadoluya qədər eyni damğaların istifadə edilməsi hələ qədim zamanlardan bu

* Milli Azərbaycan Tarixi Muzeyi, Etnoqrafiya fondunun müdiri, tarix üzrə fəlsəfə doktoru. E-mail:s.nasirova30@mail.ru



ərazilərdə türk qəbilələrinin yaşadığını və köklü əhalinin məhz türklərdən ibarət olduğunu sübut edən mühüm dəlillərdəndir. Azərbaycanın xalq sənəti örnəkləri, əsasən də xalçalarımız belə simvollarla bəzədilmişdir. Üzərində sirli-sehrli naxışlar olan xalçalarımızı xalqımızın məişət həyatı, dünyagörüşü, mənşəyi haqqında mühüm mənbələrdən biri hesab etmək olar.

AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasına aid olan və günü-gündən sayı artan geyimlər, xalça və xalça məmulatlarının bir çoxunun üzərində türk xalqlarının damğalarına və Göytürk əlifbasının izlərinə rast gəlmək mümkündür. Türk xalqlarının "vizit kartı" sayılan xalçalar qədim türklərin mifoloji dünyagörüşünün və dini inamlarının təzahürüdür. Bu simvollar xalqımızın genetik şüurunda yaşamış və müəyyən şəkildə özünü folklorda və sənət əsərləri üzərində biruzə vermişdir. Toxuculuq məmulatlarının araşdırılması zamanı çox sayda petroqliflərin toxuculuq məmulatlarının üzərinə toxunulduğunun şahidi olduq. İşlənən bütün naxışlar müəyyən ayin və nəzərdən qorunma məqsədi daşımışdır. Hər bir işarə əslində təsadüfi, yaxud bəzək məqsədi ilə deyil, müəyyən bir məna ifadə etmişdir. Qədim tarixə malik türk xalqlarının ilk yazılı əlifbasının yaranması Göytürk dövlətinin hakimiyyəti illərinə təsadüf edir. Qədim türk damğaları öz əksini bu əlifbada tapmışdır. Bu damğaların bir çoxu isə xalça və xalçaçılıq məmulatları üzərinə bəzən stilizə olunaraq, bəzən də açıq-aşkar şəkildə toxunmuşdur.

### 1. Türk xalqlarında ox damğasının mifologiyasına dair

Bu məmulatlar üzərinə toxunmuş naxışlardan biri də ox damğasıdır. Ox naxışının yaranması oxun xalq arasında geniş istifadəsi ilə birbaşa əlaqədardır. Zaman-zaman ox və yayın insanların həyatında mühüm rol oynaması bununla əlaqədar inancları formalaşdırmışdır. Xalq arasında oxla bağlı deyimlər də mövcuddur. Məsələn, kiminsə məqsədinə çatmamasını ifadə etmək üçün "Oxu daşa dəydi" deyimi işlədilir. Yaxud kəm gözü dəf etmək üçün işlədilən "Gözünə ox!" deyimi hələ də xalq arasında yaşamaqdadır.

Ox mühafizəkar qadınların xalçaya toxuduğu çoxmənalı işarələrdəndir. L.Kərimov xalça naxışlarının təsnifatını və el adlarını verərkən üç dəfə oxbaşı elementinin adını çəkmişdir (Kərimov, 1961: tablo 60, şəkil 1, tablo 129-2, tablo 190-3). Həqiqətən də ox motivinin sırf iti uclu başlığı toxuculuq məmulatları üzərində təsvir olunmuşdur. Qədim türk tayfalarının təsəvvüründə ox paralel olaraq qadının dünyaya övlad gətirmək istəyinin rəmzi ifadəsi hesab edilirdi (Qurbanov, 2013: 199). Bəzi ox başı motivlərinin içərisində gül təsvir olunması bu fikirlə razılaşmağa imkan verir. Elmi ədəbiyyatda üzü yuxarı ox qadın başlanğıcını, üzü aşağı istiqamətlənmiş ox isə kişi başlanğıcını simvolizə etməsi ilə əlaqədar fikirlər də irəli sürülmüşdür. Beləliklə, ox qadın başlanğıcıdırsa, içərisindəki gül övladı rəmzləndirir. Yuxarıda qeyd etdiyimiz kimi L.Kərimovun "Azərbaycan xalçası" adlı kitabında 190 saylı tablonun 3-cü şəklində ox içərisində gül təsvirini görə bilərik (Kərimov, 1961: 190-3).

Qeyd etmək lazımdır ki, ox həm də Umay ananın simvollarından biri olmuşdur. Sibirin türk xalqlarının təsəvvürünə görə, ox uşağı şər və bədxah ruhlardan qo-

ruyardı. Yəni bu oxları Umay ana körpələrə yaxınlaşan bədxah ruhların üzərinə yağdırardı. Məlumatçı S. Zeynalovanın dediyinə görə, hazırda Azərbaycanda körpə uşaqların yastığının altına qorxmaması, diksinməməsi üçün qoruyucu məqsədlə bıçaq, yaxud qayçı qoyulur. Bu adət özü də ox kultu ilə bağlıdır. Sonrakı dövrlərdə məmulat üzərindəki təsvirlərdə oxun yerini məişət həyatına nisbətən gec daxil olan iti uclu əşyalar tutmuşdur.

Bütün türk xalqlarında oxla əlaqədar ən az bir el adəti, deyim, yaxud nağıl tapmaq mümkündür. Xüsusilə toy adətlərində ox-yay mühüm yer tutur. Qırğız və qazaxların qədim toy adətinə görə əgər bəy hansısa səbəb üzündən toy karvanına qoşula bilməyibsə, onu gəlinin sağ əlində tutduğu ox əvəz edə bilərdi (Qurbanov, 2013: 199). Burada biz oxun kişini simvolizə etdiyini, simvolik olaraq bəyi əvəz edə biləcəyi faktını müşahidə edirik.

Oxla bağlı inanclar və nağıllar dünya xalqlarında da mövcuddur. Bir çox xalqlarda əskidən mağara İlahə-Ananın məskəni, qadın bətninin rəmzi, yaranışın başlanğıcı sayıldığı üçün evlənmə mərasimində bəy niyyət tutub oraya ox atardı. Bu mərasim Altaylarda da geniş yayılmışdır (Qurbanov, 2013: 199). Məlumatçılar Zeynalova Sədaqət (54 yaş) və Səmədova Səadətin (55 yaş) söylədiklərinə görə, Azərbaycanda nəslə gəlişi gözlənilən, lakin gec dünyaya gələn körpələrin doğuşunu tezləşdirmək üçün evin küncələrinə ox sancma adəti mövcud olmuşdur. Ümumiyyətlə, məlumatçıların dediyindən belə nəticəyə gəlmək olar ki, uzaq yoldan gələn birini gözləyəndə küncələrə iti alət sancma adəti mövcud olmuşdur. Sonradan yuxarıda qeyd etdiyimiz kimi oxun istifadədən çıxması ilə bunu iti uclu bıçaqlar əvəz etmişdir.

Ox qədim türklərin şaman dünyagörüşü ilə də əlaqədar olmuşdur. Araşdırmaçılar folklor qaynaqları və etnoqrafik materiallar əsasında bu qənaətə gəlirlər ki, ilkin çağlarda şamanlar qamlıq etmə mərasimini davulla deyil, məhz oxla keçirərmişlər. İ.Kızlasov da oxun şamanizmlə bağlı olması fikrini təsdiqləmişdir. İ.Kızlasov bu qənaətdədir ki, qədim inanc yeri olan mağaralarda xeyli ox ucluq-larının tapılması qədim şaman ayinləri, yay-ox kultu ilə bağlıdır (Qurbanov, 2013: 199). Göründüyü kimi türk xalqlarının mifoloji dünyagörüşündə özünə möhkəm yer tutmuş ox bəzən erkəklik rəmzi, bəzən də dişilik, ilahə rəmzi kimi qarşımıza çıxır.

Ox rəmzi baxımdan da türk xalqlarının dekorativ-tətbiqi sənətlərində çox istifadə olunan bir naxışdır. Hətta bəzi qəbir daşları üzərində ox və yay təsvirinə rast gəlmək olur. Ox-yay cəsarət və qorxusuzluğun da rəmzi kimi mənalandırılır. Oxa hakimiyyəti, göyləri rəmzləndirən ilahi bir əşya kimi baxmaq adəti qədim türklərin şaman ayinlərində uzun müddət özünü göstərmişdir. İstər İslamiyyətdən əvvəl, istərsə də sonralar mədəniyyətimizdə bu rəmzlər istifadə olunmağa davam etmişdir. Oğuzların iyirmi dörd boyundan on ikisi Üçoxların, digər on ikisi isə Bozoxların tabeliyində idi. Bu tayfa birliklərinin adı ox və yayla bağlıdır. Üçoxların tayfa rəmzləri ox, Bozoxlarınkı isə yay olmuşdur. Hətta Oğuz dastanında da bu tayfa birliklərinin yaranması haqqında danışılır. "XIV əsrin başlanğıcında yazılmış Oğuz xaqan dastanına görə Üçox və digər on iki Oğuz boyunun ümumi adı olan Bozox



Oğuz xaqanın oğulları ilə əlaqədardır. Dastanda xaqanın ov üçün göndərdiyi üç böyük oğlunun (Gün, Ay, Ulduz) bir qızıl yay tapıb gətirdiyi, qərbə gedən digər üç oğlunun isə (Göy, Dağ, Dəniz) üç gümüş oxla qayıtdıqları bildirilir. Bu səbəbdən keçirilən şənlikdə üç böyük oğlunu sağ tərəfində, üç kiçik oğlunu isə sol tərəfində oturdan xaqan ölkəni oğulları arasında bölüşdürüldüyünü bildirir" (Sümer, www.islamansiklopedisi.info/dia). Burada ox hakimiyyət rəmzi kimi, kişilik, igidlik simvolu kimi göstərilir.

Xivə hökmdarı Əbülqazi Bahadur xanın (XVII əsr) qələmə aldığı "Şəcəreyi-Tərakimə"də Oğuz xaqan rəvayətinə islam dininin çalarları əlavə edilsə də, yay-oxun ilkin mənası qorunub saxlanmışdır: "Sizin tapdığınız yay-ox Tanrı (Allah) tərəfindən göndərilib. Bizdən əvvəl yaşayanlar yayı - şah, oxu isə onun elçisi sayırdılar. Çünki yay oxu haraya göndərsə, o tərəfə uçacaq". Ox yazı sistemlərinin yarandığı dövrlərdə də türk xalqları üçün aktual bir işarəyə-damğaya çevrilir. Ox işarəsi Göytürk əlifbasında "ok" kimi səslənir və "k" hərfini ifadə edir. Xaçmaz şəhəri Diyarşünaslıq muzeyinin girişində ox və yay təsvir olunmuş qəbir abidəsi mühafizə olunur. Qəbir abidəsi üzərində olan bu təsvir dünyasını dəyişmiş adamın ovçuluqla məşğul olması, yaxud igid insan olması ilə əlaqədardır. Onu da deyək ki, oxun qədim zamanlarda "boy" mənasında olduğu da məlumdur (Gülensoy, 1989: 58-65). Buradan belə nəticəyə gəlmək olar ki, türk damğalarında *ok* kimi oxunan bu damğa türk xalqlarının dini inanclarında yer tutmuş və müasir zamanəmizə qədər öz aktuallığını itirməmişdir.

**2. Türk xalqlarında and naxışının tarixi və mifoloji izahına dair**

Toxuculuq məmulatları üzərində rast gəldiyimiz digər naxış türk xalqlarında and sözü kimi oxunan damğa işarəsidir. Tədqiqatlar göstərir ki, and türk xalqları üçün olduqca vacib bir ritual sayılardı. And arxaik mifoloji görüşlərlə bağlı olub, sözün magik gücünə inamı, ona əski bağlılıq hissini əks etdirən mifoloji-magik strukturlu mətn tipidir (Məmmədov, 2003: 38). Yuxarıda da qeyd etdiyimiz kimi, qədimdə türk xalqları and içmək istədikləri zaman "kımız" adlanan at südünün üzərinə öz qanlarını axıdar və qardaşlaşardılar (yaxud ittifaq qurardılar). Kımız bir çox türk xalqlarının ən qədim milli içkisi olmuşdur (İnan, 1948: 279). Qədim hunların saraylarında olmuş əcnəbi diplomatlar bu içki haqqında məlumat vermişlər. 568-ci ildə Bizans imperatoru Yustinianın tərəfindən İstəmi xaqanın sarayına göndərdiyi elçisi Zemarkos səyahət xatirələrini qeyd edərkən, şərəfinə verilən qonaqlıqlarda çox miqdarda içilən, lakin, başqa bir maddədən hazırlanmış "kosmos" adlı içkidən tez-tez bəhs edir (Diyarbekirli, 1972: 58). Eyni içkiyə Priskos da Atillanın Avropadakı sarayında rast gəlmiş və adını "kosmos" kimi qeyd etmişdir (Diyarbəkirli, 1972: 58). Hətta Herodot bu içkinin hazırlanması haqqında məlumat vermişdir. O, skitlərin qımız içkisini 2500 il əvvəl belə təsvir edir: "Kölələr tütəyə oxşar bir sümük borunu madyanın döl yatağına qoyub ağızla üfürür, biri üfürərkən digəri sağır. Nə üçün belə etdiklərini soruşanda, deyirlər ki, üfürülən hava atın damarlarını açır. Sağılan süd taxta çənlərə boşaldılır və ətrafına düzülən kölələr tərəfindən çalxalanır. Skitlər südün alta çökən hissəsini yox, üstə yığılan qatını ayırır

və onu yüksək qiymətləndirirlər" (Ağasıoğlu, 2000: 308). Qeyd edək ki, qımız içmək və bu cür rituallar yalnız türk xalqları üçün səciyyəvi olmuşdur.

Əmir Teymurun həm damğası, həm də dövlət rəmzi olan bu işarə qədim saka skitlərinin, xəzərlərin, oğuz və qıpçaqların hərbi siyasi birlik yaratmaq ənənəsinin qrafik təzahürü kimi and adlanır və qana and içmək, qardaşlaşmaq, sarsılmaz müttəfiqlik anlamlarını verir (Qurbanov, 2013: 36). Türk xalqları arasında müxtəlif and ritualları mövcud olsa da, qanla assosiasiya olunan rituallar daha çox üstünlük təşkil edirdi. Skitlərin belə rituallarından biri haqqında məlumat verən C.Məmmədov yazır ki, onlar and içdikləri zaman öz bədənlərini yaralayıb qanlarını bir qaba axıdandan sonra silahlarını o qana batırar, andın sözlərini təkrar edərək qabdakı qandan içərdilər (Məmmədov, 2003: 38). Zənnimizcə, müasir zəmanəmizdə də Türkiyə türkcəsində mövcud olan "kanka", yəni qan qardaşı sözü həmin adətin təcəssümüdür. Monqollar dönəmində anda sözü "andlı qardaşlar" mənasını ifadə edirdi (Roux, 2011: 32). İslam dininin yayılmasından sonra isə bu ifadə, yuxarıda da qeyd etdiyimiz kimi, "qan qardaşı" ifadəsi ilə əvəz olunmuşdur. Azərbaycan ərazisində belə bir ifadə işlənməsə də, bir-birinə yad olan insanlara qardaş kimi müraciət edilməsi bu ifadənin başqa forması kimi mədəniyyətimizdə yer almışdır. Xalqımız arasında bu ritualı təsdiq edən fakt elə "and içmək" ifadəsinin özündə gizli qalmışdır. Belə ki, and içmək, yəni həmin o qanla dolu qabı içmək kimi başa düşülmüşdür. Sonralar bu söz qalsa da, ritual özü İslam dininin təsiri ilə unudulmuşdur. Anda sadiq qalmağı türk xalqlarının gözündə ucaldan səbəblərdən biri də onun Göy Tanrı ilə assosiasiya olunmasıdır. Keçmişdə and içmə, şükür Göy Tanrıya edilərdi (Bayat, 2005: 16).

And bir hərf kimi əski türk əlifbasında da istifadə olunmuşdur. Əski türk əlifbasında "nd" hərfdir, sarsılmaz ittifaq, əhd və andın işarəsidir (Qurbanov, 2013: 79). Qeyd edək ki, bu hərf dairə və içərisinə axıdılmış qan damlalarını simvolizə edən nöqtələr şəklində təsvir olunmuşdur. "And" kimi oxunan hərflərdən biri eyni zamanda günəşin piktoqramlarından biri hesab olunur (Qurbanov, 2013: 129). Çunki piktoqramlarda dairə təsviri günəşi simvolizə edir. Bunu təsdiq edən türkiyəli tədqiqatçı E.Esin Göytürk dönəmində günəşi şahid tutaraq and içildiyini göstərir (Esin, s. 129). Qədim dövrlərdə xalçalarımız üzərində qədim türk əlifbasının hərflərinin təsvir edilməsi ənənə halını almışdı. Muzeydə mühafizə olunan bir çox toxuculuq nümunəsi üzərində belə dairə içərisində təsvir olunmuş and mənasına gələn naxışlar var. Şirvan xalçaçılıq məktəbinə aid xalçalardan biri üzərində məhz belə dairə içərisində and piktoqramı verilmişdir. And damğasının bu xalçaya toxunması da təsadüfi olmayıb, onun hansısa peymanla, əhdlə bağlı olduğunu ifadə edir (Насирова, 2015: 166, Nəsirova, 2014: 373).

Əski türklərdə andiçmə mərasiminin tarixi e.ə. I əsrə aid edilir. Çin mənbələrində bu məlumata rast gələn rahib Hyacinth bu yazını belə tərcümə etmişdir: "Han və Hunlar bir sülalə təşkil edir, nəsillər boyunca bir-birini aldatmaz, bir-birinə hücum etməzlər. Oğurluq olduqda bir-birinə bildirərlər. Oğruları cəzalandırar, zərəri ödəyərlər. İki tərəfdən birinə düşmən hücum edərsə, əsgərləri ilə yardım edərlər. Bu andı kim pozarsa, tanrının cəzasına gəlsin, nəsillər boyunca bu andın cəzası altında inləsin.. " (İnan, 1948: 279).



Andlar əsasən iki yolla yaranmışdır: 1) İnsanların sakral saydıqları varlıqlara and içməsi yolu ilə, 2) müəyyən bir iş, əhvalatla bağlı söylənilmiş fikrə, sözə şübhə ilə yanaşıldıqda müsahibini inandırmaq üçün (Kitabi Dədə-Qorqud, 2000: 26). And içmək xalq arasında bu gün də yaşayan adətlərdəndir. Hazırda İslam dini ilə əlaqədar olaraq, daha çox Allaha, 12 imama, Qurana və İslamda müqəddəs sayılan bu kimi inanclara and içilir. Lakin qədim Oğuz eli olan Azərbaycanda İslama qədər günəşə, aya, oda və işıqa and içilmişdir. Hətta hazırda da bəzən "Bu işığa kor baxım", "Gün üzü görməyim" kimi andlar da xalq arasında yaşamaqdadır. Orta əsr mənbələrində andla bağlı müxtəlif rituallar öz əksini tapmışdır. Bu cür andlara biz "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlirik. Dastanın bir çox boyunda qəhrəmanlar öz peymanlarını dilə gətirmək üçün anda müraciət edirlər. Türk dünyasının məşhur söz ustadlarından biri, divanı ilə tanınan M.Kaşğari də andla bağlı bəzi məlumatlar vermişdir. O, yalandan and içənin cəzasının qılıncla verildiyini yazmışdır (Roux, 2011: 33.). Toxuculuq nümunələri üzərinə and, əhd, peyman məqsədilə toxunan naxışlardan biri kimi and naxışı, zənnimizcə, qədim türk inancları əsasında formalaşmış və yaşamışdır

**Nəticə**

Belə nəticəyə gəlmək olar ki, xalçalarımız üzərində təsvir olunmuş hər bir naxış müəyyən bir ideologiyanın, bir fikrin ifadəsi olmuşdur. Bəzən doldurucu element kimi sayılan bəzi naxışlar belə, müəyyən bir inancın və ya mifoloji dünya görüşünün təzahürü kimi çıxış etmişdir. Ox və and naxışlarının araşdırılması onların xoş məramla, dostluq, qardaşlıq, səadət, igidlik və övladların qorunmasını tərənnüm etmək məqsədilə xalçalara toxunması nəticəsini təsdiqləyir.

## ƏDƏBİYYAT


1. Ağasıoğlu F. (2000). Azər xalqı (seçmələr). Bakı, Ağrıdağ.
2. Bayat F. (2005). Mitolojiye giriş. Kara M araştırma ve yayıncılık, Çorum.
3. Diyarbəkirli N. (1972). Hun sanatı. Milli egitim basım evi. İstanbul.
4. Esin E. Türk kosmolojisine giriş. www/toplumsalbilinc.org.
5. Gülənsoy T. (1989). Orhundan Anadoluya türk motivləri. Türk dünyası araştırmaları vakfı. İstanbul.
6. İnan A. (1948). Eski türklerde ve folklorda ant. *Ankara üniversitesi dil ve tarih-coğrafya fakültesi dergisi.* Cilt VI. Sayı 4-den ayrıbasım. Ankara, Türk tarih kurumu basımevi.
7. Kərimov L. (1961). Azərbaycan xalçəsi. Bakı,.
8. Kitabi-Dədə Qorqud ensiklopediyası. II cilddə. I cild. Bakı, Yeni nəşrlər, 2000.
9. Qurbanov A. (2013). Damğalar, rəmzlər... mənimsəmələr. Bakı.
10. Məmmədov C.B. (2003). Türk mifoloji sözlüyü. Bakı.
11. Nəsirova S. (2014). Milli Azərbaycan Tarixi Muzeyinin unikal süjetli Şirvan xalçası // *MATM toplu.* Bakı.
12. Roux J.P. (2011). Eski türk mitolojisi. Çev. Yaşar Sağlam. Bilgesu yayıncılık.

13. Sümer F. Üçoklar. http://www.islamansiklopedisi.info/dia/pdf/c42/c420198.pdf
14. Насирова С. (2015). Уникальный Ширванский сюжетный ковер, хранящийся в Национальном Музее Истории Азербайджана. // *Гилея*, выпуск 93 (2). Киев.

*Севиндж Насирова (Азербайджан)*

## Мифологические основы клейма «стрела» и «клятва» на азербайджанских коврах

### Резюме

В статье рассматриваются одни из самых широкораспространенных ремесленных изделий тюркских народов – ковры и узоры, наносимые на ковровые изделия. Многие из этих узоров сформировались на основе религиозного и мифологического мировоззрения тюркских народов. Несмотря на то, что узоры являются предметом многих исследований, к правильному заключению о них можно прийти путем проведения археологических, этнографических, филологических и религиозных изысканий. Так, в связи с историческими процессами часть узоров, подвергнувшись стилизации, далеко отошла от своего первоначального вида. В статье затронуты некоторые узоры, используемые в прикладном искусстве тюркских народов. В основном это узоры «стрела» и «клятва», формирование которых напрямую связано с историческими процессами. Статья написана с проведением параллелей со все еще актуальными среди народа образцами устной народной литературы (пословицы, поговорки, притчи), археологическими находками, надгробными памятниками, мифологией тюркских народов.

К исследованию привлечены различные образцы ремесленного мастерства тюркских народов, в частности ковры. В богатой коллекции Музея истории Азербайджана хранятся образцы ковров каждой из азербайджанских ковровых школ, и их исследование ещё раз доказывает, что формирование мировоззрения и мифологического мышления азербайджанского народа происходит под влиянием исключительно тюркских народов.

**Ключевые слова:** *клеймо, тюркские народы, ковер, клеймо «клятва», кумыс.*

*Sevinj Nasirova (Azerbaijan)*

## The Mythological Foundations of the Arrow and Oath Symbols on Azerbaijani Carpets

### Summary



This article discusses one of the handicrafts most widespread among Turkic peoples - carpet making and the patterns applied to carpet products. Many of these patterns were formed out of the religious and mythological worldview of these peoples. Although the patterns have been the subject of many studies, the most accurate conclusions about them may be drawn from archaeological, ethnographic, philological and religious studies. As a result of historical processes, some of the patterns, have undergone stylization and are quite far removed from their original appearance. The article touches on some of the patterns used in the applied art of Turkic peoples. Principally, these are the "arrow" and "oath" patterns, whose development is directly concerned with historical processes. The article indicates parallels with samples of oral folk literature (proverbs, sayings, parables), archaeological finds, tombstones and Turkic mythology - all still relevant among the peoples.

Various examples of Turkic peoples' craftsmanship, carpets in particular, were studied. The rich collection held by the Museum of the History of Azerbaijan contains samples of carpets from each of the Azerbaijani carpet schools, and their study proves once more that the development of the worldview and mythological thinking of the Azerbaijani people was influenced exclusively by Turkic peoples.

**Key words**: *symbol, Turkic peoples, carpet, oath symbol, koumiss.*